

## 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR



# İzi itməyən cinayətlər

## Erməni daşnaklarının cənub bölgəsində törətdikləri soyqırımının yaraları bu gün də sağalmayıb

**Azərbaycan xalqına qarşı törədilmiş və uzun illər boyu öz siyasi-hüquqi qiymətini almamış 31 Mart soyqırımı tariximizin faciəli səhifələrindən biridir. Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Şamaxı, Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Kürdəmirdə, habelə Qərbi Azərbaycanda və digər ərazilərdə erməni daşnaklarının və onların havadarlarının silahlı dəstələri tərəfindən azərbaycanlılara qarşı törədilən soyqırımı nəticəsində yüz minlərlə dinc sakin etnik və dini mənsubiyyətinə görə qətlə yetirilmiş, yaşayış məntəqələri dağıdılmış, mədəniyyət abidələri, məscid və qəbiristanlıqlar yerlə yeksan edilmişdir.**






Etiraf edək ki, biz azərbaycanlılar keçmişi, başımıza gətirilən müsibətləri, qırğınları tez unuduruq. Bir tərəfdən biz unutqanıq, bir tərəfdən də bunlar məqsədli olaraq bizə unutdurulmuş, beynimiz sovet təbliğatı ilə yuyulmuşdu. Odur ki, SSRİ dağılıb saxta beynəlmiləlçilik ideyaları iflasa uğrayanda bir də ayıldıq ki, dostumuzla düşmənimizi tanımamışıq, hamını özümüz kimi qəbul etmişik. Tariximiz saxtalaşdırılmış, qaniçən düşməni dost bilmişik, vətənimizin qoynunda ilan bəsləmişik.

Artıq bütün bunlar arxada qalıb. Azərbaycanın ərazi bütövlüyünə qovuşduğu bu günlərdən 1918-ci ildə baş vermiş qanlı olaylara boylananda başa düşürük ki, bir də heç vaxt sayıqlığımızı əldən verməməliyik. Erməni qəsbkarlarının millətimizə qarşı törətdiyi cinayətlər qan yaddaşımızda əbədi qalmalı, heç vaxt unudulmamalıdır. Lənkəranlı həmkarımız, Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü Ağaddin Babayev və Salyandan olan tədqiqatçı, tarix müəllimi Sahib Həsənovla da söhbətimiz bu barədədir.

Ağaddin Babayev dedi ki, Lənkəranda ataman Şevkunovun erməni quldur dəstəsi şəhərin mərkəzində Mirəhməd xanın sarayını ələ keçirərək, orada qərargah qurmuş, müsəlman yaşayış məntəqələrini dağıtmağa başlamışdı: "Şevkunovun adamları Sütəmurdov kəndini qaçaqmalçılardan qorumaq adı altında dinc sakinləri atəşə tuturdu. 13 ağsaqqal dəstə komandirinin yanına gedib vəhşiliyə son qoyulmasını tələb etdi. Lakin daşnaklar onları girov götürdü. Şevkunov özünün üç əlaltısını yaxınlıqdakı kəndlərə kəşfiyyata göndərdi. Qaçaqmalçılarla qarşılaşdıqları yolda atışma baş verdi və nəticədə iki kəşfiyyatçı öldürüldü, sağ qalan üçüncü isə qaçaraq baş verənləri Şevkunova danışdı. Qəzəblənən Şevkunov müdafiəsiz ağsaqqalların başlarını kəsdirdi".

Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti Firudin Cümşüdlü yazır: "Ermənilər öz planlarını həyata keçirmək üçün tez-tez şantaj və təxribatlara əl atırdılar. Məsələn, Hacı Zeynalabdin Tağıyevin oğlu Məhəmməd təsadüfi güllə ilə ölümcül yaralanmış və ölmüşdü. Daşnaklar gəncin dəfnində iştirak edən müsəlman əsgərlərinin Lənkəran malakanlarına qarşı qanlı qırğın törədəcəkləri xəbərini yaydılar. Bu təbliğat kampaniyası regionda azərbaycanlılara qarşı kütləvi repressiyalara başlamaq məqsədi daşıyırdı".

Filologiya elmləri namizədi, rəhmətlik Mirqaşım Talışlı danışırdı: "Atam Mirmurtuza Talışlı Lənkəranın faciəli günlərini xatırlayarkən bildirirdi ki, şəhər və ətraf kəndlərin əhalisi Osakücə kəndi yaxınlığındakı meşələrdə sığınacaq tapmışdı. Quldurlar dağıdılmış Lənkəranı tərk edəndən sonra insanlar geri qayıdarkən yaşayış binalarını top mərmilərindən deşik-deşik olmuş və ya yandırılmış gördülər. Əhalinin əmlakı talan edilmişdi. Rastlarına çıxan hər kəsi öldürmüşdülər. Ana babam da öldürülənlər arasında idi".

Həmin dəhşətli hadisələrin bilavasitə şahidi olmuş, rayonun Gərmətük qəsəbə orta məktəbinin müəllimi, mərhum Əbülqasım Qasımovun söylədiklərindən: "Şevkunovun quldur dəstəsi erməni silahlı birləşmələri ilə birgə hərəkət edirdi. Döyüş gəmilərinin göyərtələrindəki toplardan şəhərə atılmış mərmi məscidin bir hissəsini dağıtmışdı. Abuzər Ağababaoğlu bir yaşlı oğlu ilə birlikdə güllələnmiş, Kərbəlayi Səfərəli isə ot tayasında soyuqqanlılıqla qətlə yetirilmiş, evi yandırılmışdı. Quldur gülləsi Kərbəlayinin köməyinə tələsən Güləlinin də həyatına son qoymuşdu. Dərzi Musanın evindən 8 meyit çıxarılmışdı".

Lənkəranın qocaman müəllimlərindən rəhmətlik İman Əliyev Ağaddin Babayevə danışmışdı ki, Şevkunovun quldurları rayonun bütün kəndlərində soyğunçuluq edirdilər: "Qatillərin bıçağının altına ilk növbədə nüfuzlu şəxslər düşmüşdü. Onların evləri yandırılır, sərvətləri dəstənin başçıları arasında bölüşdürülürdü. Təkcə kəndlərdə deyil, rayon mərkəzində də qan tökülmüşdü. Mayakın yaxınlığında yüzlərlə meyit tapılmışdı".

BDU-nun professoru, Milli Məclisin deputatı Anar İsgəndərovun sözlərinə görə, 1918-ci ildə ermənilər Lənkəranda iki dəfə (fevral, mart) soyqırımı törətmişlər: "Arxiv sənədlərindən göründüyü kimi, 1918-ci ilin martında Lənkəran qəzasında 40-a yaxın yaşayış məntəqəsi tamamilə dağıdılmış, yüzlərlə insan qətlə yetirilmişdir. Dəhşətli faciələr Nuru Paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusunun Azərbaycana gəldiyi vaxtadək davam etmişdir. Qəzanın dağlıq-meşə hissəsi ilə Astaraya gələn türk sərkərdəsi Camal Paşa silahsız camaatın köməyinə çatmışdı. Onun dəstəsində 500 nəfərə qədər döyüşçü vardı. Qızğın döyüşlərdən birində ermənilər Camal Paşanı qətlə yetirmişlər. Onun nəşi rayonun Pensər kəndində Hacı Teymur məscidinin həyətində torpağa tapşırılmışdır. Türk sərkərdəsinin məzarı bu gün yerli əhalinin və turistlərin ziyarətgahına çevrilmişdir".

Salyanda erməni vəhşiliyi haqqında Sahib müəllimin söylədikləri də qandonduran faktlardır: "1918-ci ildə erməni-daşnak hərbi qüvvələrinin dəhşətli qətliamları, görünməmiş vəhşilikləri Salyandan da yan keçməmişdir. "Daşnaksütyun" partiyasının liderləri 1918-ci ilin ilk aylarından etibarən Bakıdan başlayaraq Tiflisə qədər məskunlaşan azərbaycanlıları qırıb Kür çayına, Qubadan Astarayadək yaşayan müsəlmanları isə Xəzər dənizinə tökməyi planlaşdırmışdılar. Həmin plana əsasən, 1918-ci ilin mart ayından başlayaraq Bakıda, Şamaxıda, Qubada, Xaçmazda, Göyçayda, Hacıqabulda, Lənkəranda, Salyanda və s. yerlərdə ermənilər yerli əhaliyə qarşı kütləvi qırğınlara başladılar. Bakıda 1918-ci ilin mart-aprel hadisələri erməni daşnak və bölşeviklərin iç üzünü xalqa göstərdi. Bakı Xalq Komissarları Sovetinin sədri, maskalanmış bolşevik, qatı millətçi daşnak Stepan Şaumyanın göstərişi ilə Bakıda törədilən soyqırımında on minlərlə günahsız azərbaycanlı qətlə yetirilmişdir. S.Şaumyanın Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən müdhiş planında Salyan da var idi.

Salyanda ermənilərin törətdikləri qətl və qarətlər, yerli əhalinin və onlara köməyə gələn türk hərbi qüvvələrinin erməni cəlladlarına qarşı döyüşləri barədə tarix kitablarında çox az məlumat verilmişdir. Yaşlı nəslin nümayəndələri ata və babalarından eşitdiklərini bu günümüzə çatdırmışlar. Sənədlərdə, tarixi mənbələrdə faktlar qalmaqdadır. Yeri gəlmişkən, Osmanlı Ordusunun Azərbaycan əməliyyatı barədə yazılmış kitablarda ətraflı məlumatlar vardır. Nəsir Yüccərin yazdığı "Birinci Dünya müharbəsində Osmanlı Ordusunun Azərbaycan və Dağıstan əməliyyatları" kitabı çox əhəmiyyətli mənbələrdəndir. Yaxud 5-ci Qafqaz piyada firqəsinin ərkanı, hərb rəisi Rüşdi Türkərin "Böyük hərbdə Bakı yollarında" kitabı dəyərli mənbə kimi qiymətlidir".

S.Həsənov sözünə davam edərək dedi ki, erməni-daşnak silahlıları 2 zirehli, 4 nəqliyyat gəmisi ilə Xəzər dənizindən Kür çayına keçmiş və çayın ətrafındakı kəndləri qarət etmiş, insanları vəhşicəsinə qətlə yetirmişlər: "Quldur dəstələri çayla irəliyə doğru hərəkət edərək Salyanın 3 kilometrlik məsafəsində yerləşən Kürqaraqaşlı kəndinə qədər gəlib çatmışlar. Erməni-daşnak və rus silahlı qüvvələrinin keçdiyi istiqamət Bankə-Seyidlər-Uzunbabalı-Tatarməhəllə-Xıllı-Abasalı-Qaralı-Qəzvinli-Qarabucaq-Surra-Ərəbbəbirxanlı-Cəngən-Kürqaraqaşlı kəndləri üzrə olmuşdur. Ermənilər Kür çayı boyunca olan bu kəndlərdən başqa, digər yaxın kəndlərə də soxulmuşlar. Silahsız, müdafiəsiz insanların çox az bir hissəsi uzaq kəndlərə qaçıb canlarını qurtara bilmişlər. Ermənilər əhalinin silahsız və dinc vəziyyətindən istifadə edərək qətl və qarətlər törətmişlər. Onlar qarşılarına çıxan kəndləri, yurd yerlərini dağıdır, yandırır, kişiləri, qadınları, uşaqları, qocaları vəhşicəsinə öldürürdülər. Bir-bir evlərə girib hətta hamilə və uşaqlı qadınlara belə rəhm etmirdilər. Ermənilər onların əmrlərini yerinə yetrməyən kişiləri güllələyir, xəncərlə doğram-doğram edirdilər.

Uzunballı kəndinin əhalisini ermənilər tamam qırmışlar. Qaralı kəndində gənc bir kənd sakini Əsgər Əsgərovdan aynalı tüfəngini tapdıqlarına görə kənd sakinlərinə amansız işgəncələr verməklə güllələmişlər. Qaralı kənd sakini 114 yaşlı Aslanova Zərxanım nənənin vaxtilə söylədikləri insanı dəhşətə gətirir : "Ermənilər qadınları, qızları öldürürdülər. İnsanlar canlarını götürüb hara gəldi qaçırdı. Atam bizi 7, anamı isə 4 gündən sonra tapa bilmişdi. Həmin günlər Kür çayından öldürülmüş insanların meyitləri axırdı..."

Ötən əsrin 70-ci illərinə kimi yaşamış Kürqaraqaşlı kənd sakini Süreyya Abbasovanın biləyini ermənilər kəsmişdilər. Üç gün Babazənən dağının ətəyində, şoranlıqda meyitlər arasında, öldürülmüş qardaşlarının yanında huşsuz halda qalan Süreyyanı türk əsgərləri tapmışlar.

Ərəbbəbirxanlı kəndində ermənilərin azğınlığı barədə yaşlı kənd sakinlərindən qalmış xatirələr insan ağlına sığmır. Burada ermənilər 70-dən çox kənd sakinini tikə-tikə doğramışlar. Sovet-alman müharibəsi veteranı, kənd ağsaqqalı mərhum Yegan Sultanov söyləyirdi ki, ermənilər 80-dən çox yaşlı ər və arvadı doğrayıb kisəyə dolduraraq evinin qapısı qarşısına qoymuşdular.

Ərəbqardaşbəyli kəndində Abısəməd adlı yaşlı kişi öz bağında "Quran" oxuyan zaman erməni silahlıları müqəddəs kitabı onun əlindən alıb yerə atmış, tapdalamışlar, özünün isə başını kəsmişlər".

Sahib müəllim bildirdi ki, belə faktların, insanlıq adına ləkə olan ermənilərin cinayətlərinin sayı-hesabı yoxdur: "Aparılmış araşdırmalardan məlum olmuşdur ki, ermənilər Kürqaraqaşlı kəndinə kimi Kür boyu 18 kəndi dağıtmış, təxminən 1100 nəfərdən çox dinc insanı qətlə yetirmişlər. Bu faktı sənədlər də təsdiq edir. Erməni vəhşiləri 540-dan çox evi dağıtmış, qarət etmiş, yüzlərlə evi yandırmışlar".

Tarixçi onu da söylədi ki, Salyana 1918-ci ilin iyun ayında göndərilmiş 100 nəfərə yaxın türk hərbi qüvvələri, keçmiş çar ordusunda xidmət etmiş vətənpərvər azərbaycanlı mayor Nazi Ramazanovun təşkil etdiyi yerli könüllülər və özünümüdafiə dəstələri birləşərək erməni quldur dəstələrini məğlub edib geriyə qovmuşlar: "Bankə istiqamətində ikinci döyüşdə düşmənlər tamamilə darmadağın edilmişlər. Onların tör-töküntüləri isə gəmi ilə Bakıya qaçmışlar. Salyana göndərilmiş donanmanın komandanı Zaleski izahatında bildirmişdir ki, sərəncamımızda 800 top mərmisi olmuş, ondan 700-ü atılmışdır. Bu fakt onu göstərir ki, erməni-bolşevik hərbi qüvvələri Salyanda necə dəhşətli qırğınlar törətmişlər. O həm də izahatında qeyd edir ki, məğlub olmağımızın başlıca səbəblərindən biri rus dənizçilərindən fərqli olaraq erməni silahlılarının heç bir əmrə tabe olmaması, yerli əhalini qarət edib qətlə yetirməklə məşğul olması idi. Ermənilər gecələr gəmilərdə yatır, gündüzlər isə talançılıq edib yaramaz əməllərlə məşgul olurdular".

Salyan məzarlığında türk paşası Ömər paşanın və naməlum türk əsgərlərinin məzarı vardır. Ömər paşanın sinə daşında ərəb əlifbası ilə yazılmış yazını oxuyuruq: "Bu qəbir mərhum Ömər paşanındır. Hicri 1337-ci il" (miladi 1919-cu il). Neftçalanın Seyidlər kəndində 10 nəfər türk əsgəri dəfn edilmişdir. Salyan və Neftçala qəbiristanlıqlarındakı türk məzarları yerli əhalinin ziyarət yerinə çevrilmişdir. Salyan və Neftçala sakinləri öz canlarını bizlərdən ötrü qurban vermiş türk əsgər və zabitlərini daim minnətdarlıq duyğuları ilə yad edirlər. Salyan döyüşlərində şəhid olmuş türk əsgər və zabitlərinin müsəlman qaydası ilə dəfn olunmasında Mirbağır ağanın böyük zəhməti olmuşdur. Salyanda böyük nüfuz sahibi olmuş bu ruhani şəxsin yerli özünümüdafiə dəstələrinin toplanmasında və türk hərbi qüvvələrini köməyə çağırmasındakı xidmətlərini salyanlılar heç zaman unutmurlar.

Yerli özünümüdafiə dəstəsində böyük rəşadət göstərmiş Kərbəlayi Rəşidi, Əlibəy Ağabəy oğlunu, Qaçaq Usubu, böyük mütəfəkkür Əli bəy Hüseynzadənin qardaşı oğlu, adı Azərbaycan hərb tarixinə düşmüş Sultan İbrahim Hüseynzadəni, gəmi sahibi, sahibkar İmamverdini və digərlərini salyanlılar daim böyük hörmət və ehtiramla yad edirlər.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***